Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 9

## AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1-5 – ci tapşırıqları mətnə əsasən cavablandırın.**

**Azərbaycan qalaları (ixtisarla)**

**I.** Əzəmət, vüqar, yenilməzlik rəmzi olan qalalar xalqımızın öz torpağına möhkəm bağlılığından, yadellilərlə amansız mübarizəsindən soraq verir. Əlincə qalası, Əsgəran, Şuşa, Girdiman qalası və onlarla digər qalalarımız eyni zamanda tarixi memarlıq nümunələri sayılır.

**II.** Məşhur qalalardan biri Əsgəran qalasıdır. Qala Şuşa şəhərinin təxminən 24 kilometrliyində, Qarqarçayın sağ və sol sahillərində dağ döşündə yerləşir. Əsgəran qalası Qarabağ xanı İbrahimxəlil xanın adı ilə **bağlıdır**. İbrahimxəlil xan atası Pənahəli xanın vəsiyyətinə əməl edib iki qala tikdirir - birini şərq, o birini isə qərb tərəfdə.

**III.** Digər məşhur qala Şuşa qalasıdır. Onu Qarabağ xanı Pənahəli xan tikdirib. Bu qala Pənahabadı - Şuşa şəhərini uzun müddət xarici müdaxilələrdən qoruyaraq alınmazlıq simvoluna çevrilib. Ağa Məhəmməd şah Qacar qalanı 33 gün mühasirədə saxlasa da, onu ələ keçirilə bilməyib.

**IV.** Azərbaycan ərazisindəki qədim qalalardan biri olan Əlincə qalası Naxçıvan-Culfa yolunun kənarında, Əlincə çayının sağ sahilində yerləşir. Öz möhkəmliyi ilə dövrünün böyük sərkərdəsi Əmir Teymuru belə heyrətləndirib. O, qalanı yalnız uzun sürən mühasirədən sonra ala bilib. Qalanın sirrini öyrənmək istəyən Əmir Teymur şəxsən Əlincəyə qalxıb.

**V.** Azərbaycanda Gülüstan adında üç tarixi qala var. Bunlardan biri Goranboy ərazisində, biri Naxçıvan ərazisində, digəri isə Şamaxıda yerləşir. Goranboydakı qalanın tikilmə tarixi Qafqaz Albaniyası dövrünə aid edilir. Yerli daşlardan tikilən qala möhkəm müdafiə qurğusu olub. Tarixi Gülüstan müqaviləsi bu qalada imzalanıb.

**VI.** Şamaxıdakı Gülüstan qalası isə IX – XII əsrlərə aid edilir. Şamaxı şəhərinin üç kilometrliyində yerləşən bu qala Şirvanşahların yaylaq yeri – yay iqamətgahı, eyni zamanda möhkəm istehkam kimi ikili funksiya daşıyıb.

**VII.** Azərbaycanın qədim abidələrindən biri də Şəkidəki “Gələrsən, görərsən” qalasıdır. XII əsr memarlığının nümunəsi olan qalanı yerli əhali Qız qalası adlandırır. "Gələrsən, görərsən" adının qalaya sonradan, 1743-cü il hadisələri ilə əlaqədar verildiyi güman edilir.

**VIII.** Adlarını çəkə bilmədiyimiz daha neçə-neçə qala, uzaq keçmişin yadigarı olan abidələr xalqımızın tarixini, mədəniyyətini öyrənmək baxımından olduqca dəyərli mənbələrdir. (Uşaq bilik portalı)

**1. Verilmiş nümunə hansı abzasdan sonra artırılmalıdır?** (Nümunə özündən əvvəlki məlumatda verilmiş ardıcıllığa uyğun əlavə edilməlidir)
*“Naxçıvan ərazisindəki Gülüstan qalasının tarixi Hülakülər dövrünə gedib çıxır. Bu qala da Əlincə çayının sahilində, strateji cəhətdən əlverişli yerdə tikilib”.*

A) III B) IV C) V D) VI E) VII

**2. Mətndə altından xətt çəkilmiş sözlə eyni mənada işlənmiş söz hansı cümlədədir?**
A) İçəri keçə bilməzsən, qapı bağlıdır.
B) Dediklərim məhz bununla bağlıdır.
C) Uşaq anasına yaman bağlı idi.
D) Kənddəki evləri bağçalı, bağlı idi.
E) Bağlı mətləblərin açarı müdrik adamda olar.

**3. Mətndən belə bir nəticəyə gəlmək olmaz.**
A) Qalalar müdafiə məqsədi ilə istifadə olunurdu.
B) Qala tikintisində təbii tikinti materialından istifadə edilirdi.
C) Bəzən qala tikilməsi valideyn-övlad münasibətlərindən irəli gəlirdi.
D) Bəzi qalaların tarixi daha qədim dövrlərə – eramızdan əvvələ aiddir.
E) Qalalar tariximizi və mədəniyyətimizi öyrənmək baxımından əhəmiyyətlidir.

**4. Hansı fikirlər yanlışdır?**
1. Müxtəlif ərazilərdə eyni adlı qalalar mövcud olmuşdur – ehtimaldır.
2. Bir qala iki müxtəlif adla tanınır – faktdır.
3. Azərbaycanın müxtəlif bölgələrində Qız qalasına rast gəlmək olar - faktdır.
4. Goranboy ərazisindəki qalada müqavilə bağlanmışdır – faktdır.
5. Gülüstan qalası (XVIII əsr) həm də yaylaq yeri kimi istifadə olunub – faktdır.

A) 4, 5
B) 1, 3, 5
C) 2, 5
D) 2, 3, 4
E) 1, 2, 4

**5. Mətnə əsasən verilənləri doğru və yanlış olmaqla qruplaşdırın**.
1. Girdiman qalasının yalnız adı çəkilib, əlavə məlumat verilməyib.
2. Haqqında danışılan qalalardan biri çay sahilində yerləşir.
3. Qarabağda bir neçə qalanın olduğunu demək mümkündür.
4. Qalalar həm yaşayış üçün, həm də strateji cəhətdən əhəmiyyətli idi.
5. Ağa Məhəmməd şah Qacar Əsgəran qalasını qısa zamanda ala bilsə də, Şuşa qalası təslim olmur.
A) 2, 3, 5 – doğru, 1,4 - yanlış
B) 1, 4 – doğru, 2, 3, 5 - yanlış
C) 2, 3 – doğru, 1,4, 5 - yanlış
D) 2, 5 – doğru, 1, 3, 4 - yanlış
E) 1, 3, 4 – doğru, 2, 5 - yanlış

**6. “Yazarlar” sözünün fonetik təhlili ilə bağlı uyğunluğu göstərin.**




a. Yazılışı və tələffüzü arasında bir fərqli məqam var.
b. Söz ortasında eynicinsli qoşa samit işlənmişdir.
c. Vurğusu ikinci hecaya düşür.
d. *l* samiti işlənməmişdir.
e. Yalnız cingiltili samit işlənmişdir.
A) 1-c; 2-a,b,e; 3-d B) 1-b,c; 2-a,d; 3-e
C) 1-a; 2-b,e; 3-c,d D) 1-c; 2-a,b; 3-d,e
E) 1-a; 2-c,d,e; 3-b

**7. Hansı cümlədə nida ilə omonimliyi olan feil işlənib?**
A) Aman diləyəni darda qoymazlar.
B) Ramazan ayı on bir ayın sultanıdır.
C) Yaydan çıxan ox düz ürəyindən dəydi.
D) Meşəbəyi ağacların içini oyub, bir kənara yığdı.
E) Neçə gündür, kəndə vay düşmüşdü.

**8.** “Köçür***sən***” **feili haqqında səhv fikirdir:**
1. Vurğusu dəyişdikdə qrammatik məna növü də dəyişir.
2. Tərkibinə görə iki cür təhlil etmək olar.
3. İki müxtəlif şəkildə düşünmək olar.
4. İki müxtəlif şəxsdə düşünmək olar.
5. İşarələnmiş hissəni həm bir, həm də iki qrammatik şəkilçi kimi düşünmək olar.
6. Həm sadə, həm də düzəltmə söz kimi düşünülə bilər.
A) 2, 4, 6 B) 1, 3, 5 C) 1, 2
D) 3, 4, 5, 6 E) 1, 4

**9. Hansı sual cümləsini söz-cümlə ilə cavablandırmaq olar?**
A) Hər gün gördüyün adamlardır, kimdən şübhələnirsən?
B) Bəs sən niyə susursan?
C) Bu eşitdiklərimin hansı doğrudur?
D) Respublikamız neçənci ildə müstəqillik qazanmışdır?
E) Bir də nə vaxtsa bu yerlərə qayıdacaqsan?

**10. Fikirlərdən hansı yanlışdır?**
A) Sadə sözlərdə kök və başlanğıc forma eyni götürülür.
B) İki leksik şəkilçi qəbul etmiş sözün kökü və yarandığı söz eyni ola bilər.
C) Sözün yarandığı nitq hissəsi ilə kökü həmişə eyni anlayış deyil.
D) Mürəkkəb sözlərin tərkibində leksik şəkilçi ola bilər.
E) Sözün leksik mənası həmin sözün başlanğıc formasından izah edilir.

**11. Cədvəldəki hansı rəqəmlərin yeri dəyişilsə, izahlarda uyğunluq gözlənilər?** (sağ sütun sabit qalmalıdır)

| | |
|---|---|
| 1.təravət | təzəlik, lətafət, gözəllik |
| 2.ehtişam | həll edilməli, müzakirə edilməli məsələlər |
| 3.kolleksiya | elmi, bədii və tarixi əhəmiyyəti olan şeylərin müəyyən sistem üzrə düzülmüş toplusu |
| 4. muzey | abidələri, elmi-təbii eksponatları toplayıb mühafizə və nümayiş etdirən müəssisə |
| 5.barelyef | qırıq, parça, hissə |
| 6.fraqment | yastı səth üzərində alçaq qabarıqlı təsvir |
| 7.hövlnak | qorxu içərisində, dəhşətlə |
| 8.gündəm | təmtəraq, dəbdəbə, cəlal, əzəmət |

A) 1-8; 4-5 B) 2-6; 3-4 C) 3-4; 5-8
D) 2-8; 5-6 E) 4-7; 6-8

**12. Frazeoloji birləşmələr haqqında səhv fikirdir:**
A) Bu birləşmələr məzmunca və formaca dəyişməz olurlar.
B) Frazeoloji birləşmələr leksik vahid hesab olunur.
C) Bu birləşmələrdə əsas və asılı tərəf yoxdur.
D) Frazeoloji birləşmənin omonimi frazeoloji birləşmə olmalıdır.
E) Tərkibindəki sözlər birlikdə müəyyən bir leksik məna bildirir.

**13. Bu xüsusi isimlərdən hansı ümumi isim kimi işlənsə, sinonimi olar?**
A) Sirab B) Yasəmən C) Qalib
D) Kamil E) Astana

**14. Hansı cümlədə bütün sözləri qarşılığı ilə əvəz etmək olar?**
A) Anar xalqın mənafeyindən və rifahından danışırdı.
B) Səlimə xala hər gün eyni vaxtda buradan keçir.
C) Radio insanları maarifləndirməyə xidmət etməlidir.
D) Qımıldanaraq geriyə döndü, amma hirslənmədi.
E) Sabir rəngbərəng güllərdən dəstə bağlatdırmışdı.

**15. Hansı bənddəki sözü kontekstdə həm sadə, həm də düzəltmə söz kimi anlamaq mümkündür?**
A) Sinfi mübarizədə qalib gəlmişdi.
B) Tarixi əsərləri dəyərləndirmək lazımdır.
C) Elmi məqalələri çox maraqla oxuyardı.
D) Keçmiş günləri yada salıb kövrəlirdi.
E) Yarası, demək olar ki, ağrı vermirdi.

**16. "Koroğlu" dastanından "Durna teli" qoluna aid olan hadisələrin süjet ardıcıllığını müəyyən edin.**
1. Koroğlu Giziroğlunu vurub çaya salır.
2. Xoca Əziz Çənlibelə gəlib dəlilərdən Koroğlunun harada olduğunu soruşur.
3. Aşıq Cünun Çənlibelə gələrək Eyvazgilin tutulduğunu deyir.
4. Koroğlu dəlilərlə şərt kəsir ki, kim Çənlibelə tez çatsa, xəzinə onun olacaq.
5. Koroğlu özünü İran padşahının qohumu kimi təqdim edən xanı öldürür.
6. Qoruqçu Aslan paşaya üç nəfər nabələd adamın bulaq başında yatmasını xəbər verir.
A) 6, 2, 3, 5, 4, 1 B) 3, 6, 4, 2 C) 6, 4, 1
D) 4, 2, 3, 1, 5 E) 2, 3, 5

**17. M. İbrahimovun "Azad" hekayəsi ilə bağlı yanlış fikri müəyyən edin.**
A) Əsər Cənubi Azərbaycanda baş vermiş milli-azadlıq hərəkatından bəhs edir.
B) Azad da, Fərda da vətənlərini sevən obrazlardır.
C) Azad demokrat hökumətinin yaratdığı fədai dəstələrindən birinə başçılıq edir.
D) Anası ilə Təbrizə köçdükdən sonra Fərda Mərkəzi Komitədə çalışır.
E) Fərda Azadı görmək üçün kənddən Təbrizə gəlir, lakin onun Zəncanda olduğunu öyrənir.

**18. H.Ziyanın "Kərgədan və Qarışqa" əsəri ilə bağlı səhv fikri müəyyən edin.**
A) Əsərdə Qarışqa Kərgədanı tənbeh edir.
B) Kərgədan tənbəlliyi və kobudluğu ilə yadda qalır.
C) Əsərdə müəllifin obrazlara münasibəti əks olunmayıb.
D) Təmsil janrının tələbinə uyğun olaraq alleqoriyadan istifadə edilib.
E) Qarışqa boyca kiçik olsa da, cəsarətli olması ilə yadda qalır.

**19. İ.Nəsiminin "Ağrımaz" şeirinə aid doğru fikirləri seçin.**
1. Şeir əruz vəznində, qəzəl janrında yazılmışdır.
2. Şeirdə həm qoşa, həm də çarpaz qafiyələrdən istifadə olunub.
3. Əsərin qəhrəmanı doğru və ədalətli yol tutmuşdur.
4. Lirik qəhrəman qətiyyətli və dönməzdir.
5. Müəllif insanları zahidin sözlərinə diqqət yetirməyə və əməl etməyə çağırır.
A) 2, 5 B) 1, 3 C) 2, 4, 5
D) 1, 3, 4 E) 1, 2, 4

**20. "Manqurt" əsərində baş verən hadisələrə aid deyil.**
A) Manqurtun əl "yaddaşı" hələ də itməmişdi.
B) Nayman-Ana keçmişləri yada salmaqla oğluna kömək etmək istəyirdi.
C) Ananın danışdıqları və laylası Manqurta qətiyyən təsir etmirdi.
D) Oğlunun atdığı ox ananın ölümünə səbəb olur.
E) Ananın dəfn olunduğu yer o vaxtdan Ana-Beyit adlandırıldı.

**21. Lirik növ haqqında *səhvi* müəyyən edin:**
A) Məzmun və forma baxımından fərqlənən janrları vardır.
B) Bu ədəbi növ həyatı tərənnüm, təsvir və təhkiyə yolu ilə əks etdirir.
C) Nəğmələr, mahnılar, bayatılar folklorun lirik növünə aid janrlardır.
D) Şifahi xalq ədəbiyyatının lirik növünün ən qədim janrı əmək nəğmələridir.
E) Mahnılar nəğmələrdən melodiyasına görə fərqlənir.

**22. M.Müşfiqin "Həyat sevgisi" şeiri haqqında yanlış fikri seçin.**
A) Şeirdə gələcəyə möhkəm inam hissi, nikbin əhvali-ruhiyyə əks olunmuşdur.
B) Lirik qəhrəman yeni hisslərin təsiri ilə yazıb-yaratmaq istəyini bildirir.
C) Müəllif həyatın gözəlliklərindən doymadığını bildirir.
D) Şeir heca vəznində yazılmışdır, rədifi var.
E) Bütün bəndlərdə bədii sualdan istifadə edilmişdir.

**23. S.S.Axundovun "Nurəddin" hekayəsi ilə bağlı *doğru* fikri müəyyən edin.**
A) Əsərin ideyası "Yaxşılıq edən yaxşılıq, pislik edən pislik görər" məsəli ilə yaxından səsləşir.
B) Gülpərinin əsərin sonunda bağışlanması öz əməllərinin nəticəsi kimi izah edilə bilər.
C) Cənnətəlinin məqsədi o idi ki, Nurəddini diləndirməklə özü üçün sərvət toplasın.
D) Bahar Nurəddinin qəyyumluğunu əldə etmək üçün Gülpəriyə düşmən kəsilir.
E) Rəhim Nurəddinin ondan daha üstün bir iş gördüyünü dilə gətirir.

**24. S.Əhmədlinin "Dərs" əsəri ilə bağlı *yanlış* fikirləri müəyyən edin.**
1. Əsərdə məktəbin direktoru ümumi vəziyyətin təhlükəli olması səbəbindən şagird və müəllimlərin məktəbə gəlməməsini tapşırır.
2. Məqsədin çoxdanışan olmasına rəğmən, Gülzar müəllimə onu çox istəyirdi.
3. Əsərdə 1990-cı ilin 20 Yanvar faciəsi zamanı baş verən hadisələr əks olunub.
4. Gülzar müəllimə təklif edir ki, Məqsəd gətirdiyi daşı məktəbin sərgisinə versin.
5. Əsərin məzmunundan bəlli olur ki, həmin vaxt ölənlərin sayı gizlədilir, yanlış məlumatlar yayılırmış.
A) 3, 5  B) 2, 3  C) 1, 5  D) 1, 4  E) 2, 4

**25. M.Füzulinin "Söz" qəzəlinin "Olmayan ğəvvasi-bəhri-mərifət arif deyil" misrasında nə vurğulanır?**
A) Sözü dənizə bənzədərək orada üzməyi bilməyən kəsin dərin düşüncə sahibi ola bilməyəcəyi
B) Elmin və hikmətin gələcəyinin müəyyən olmadığı
C) Yalnız mövcud şeyləri dərk etmənin kifayət olduğu
D) Bir insanın hikmətə sahib olmasının sadəcə yaşla əlaqəli olduğu
E) Hikmətin heç zaman tapılmaması